AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

MÜTDA MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

YARIMFİNAL MƏRHƏLƏSİ

Ad ______________________ Soyad ______________________

## Yuxarı yaş qrupu

## 10 və 11-ci sinif

# COĞRAFİYA

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **120 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- 1-7-ci suallar **4**, 8-13-cü suallar **5**, 14-20-ci suallar **6** balla qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Yarımfinal mərhələsinin nəticələrini **11.03.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Cədvələ əsasən Nil çayının verilmiş çaylarla oxşar xüsusiyyətlərini müəyyən edin.

| I Mekonq | II Missisipi | III Parana |
|---|---|---|
| a. Yay aylarında bolsulu olur. | a. Mənsəbinin yerləşdiyi ölkədə ÜDM-də ən böyük pay iqtisadiyyatın (III) sektoruna aiddir. | a. Sutoplayıcı hövzəsində çöl təbii zonası yayılıb. |
| b. Sutoplayıcı hövzəsində yerləşən bütün ölkələr okeansahili mövqeyə malikdir. | b. Mənsəbi mülayim işıqlanma qurşağında yerləşir. | b. Yerləşdiyi materikdə nival landşaftlara rast gəlinir. |
| c. Sutoplayıcı hövzəsi iki işıqlanma qurşağında yerləşir. | c. 25°şimal enliyi ilə kəsişir. | c. Mənbəyində Günəş il ərzində günorta vaxtı üfüqün həm şimal, həm də cənub tərəfində görünür. |

A) I-a, b; II-a, c; III-b, c
B) I-b, c; II-b, c; III-a, b
C) I-a, b; II-a, c; III-a, b
D) I-a, c; II-b, c; III-a, c
E) I-a, c; II-a, b; III-b, c

**2.** Doğru fikirləri müəyyən edin.
1. Niger və Nigeriya dövlətlərinin dünya okeanına birbaşa çıxışı mövcuddur.
2. Dünyada ən böyük fosforit qurşağı Şimali Afrikadadır (Mərakeş).
3. Alternativ enerji mənbələrindən istifadə zamanı lokal səviyyədə olsa belə ekoloji problem yaranmır.
4. Dünya üzrə 1960-1990-cı illərdə əhalinin orta illik təbii artımı 1990-2025-ci illərdəki ilə müqayisədə daha yüksək olub.
5. İnkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti şəhərlərdə yaşayır.
6. Xammal ixracatından yüksək asılılıq iqtisadi riskləri azaldır.

A) 1, 3, 4
B) 2, 4, 5
C) 1, 5, 6
D) 3, 4, 5
E) 2, 3, 6

**3.** Ölkəmizin iqtisadi rayonları ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Bütün iqtisadi rayonlarda inzibati rayon mərkəzi olmayan şəhərlər mövcuddur.
2. Qarabağ iqtisadi rayonunun yalnız bir inzibati rayonu xarici ölkə ilə həmsərhəddir.
3. Lənkəran-Astara iqtisadi rayonu üç fiziki-coğrafi rayonda yerləşir.
4. Ölkəmizin müvafiq olaraq şimal və qərb ucqar nöqtəsinin yerləşdiyi iqtisadi rayonlarda həm filiz, həm də qeyri-filiz faydalı qazıntı ehtiyatları mövcuddur.
5. Şəki-Zaqatala iqtisadi rayonunda şəhərlərin sayı Qazax-Tovuz iqtisadi rayonundakı şəhərlərin sayına bərabərdir.
6. Gəncə-Daşkəsən iqtisadi rayonunda vulkanik suxurlara rast gəlinmir.

A) 1, 3, 6
B) 2, 4, 6
C) 3, 4, 5
D) 2, 3, 4
E) 1, 2, 5

**4.** Materiklərlə bağlı doğru fikirləri müəyyən edin.
1. Afrika materikinin ərazisində mövcud olan bütün iqlim qurşaqları tam zolaq təşkil edir.
2. Cənubi Amerika materikinin yalnız bir ucqar nöqtəsi şimal yarımkürəsində yerləşir.
3. Şimali Amerikada bütün çayların mənsəbi okean səviyyəsindədir.
4. Avstraliyanın ən uzun çayı yalnız mülayim işıqlanma qurşağında yerləşir.
5. Antarktidada orta illik temperatur -80°C-dən aşağı olur.
6. Avrasiya materikinin həm şərq, həm də qərb ucqar nöqtələrinin olduğu saat qurşaqları dörd yarımkürədə yerləşir.

A) 2, 4, 6
B) 1, 3, 5
C) 2, 3, 5
D) 1, 4, 6
E) 2, 4, 5

**5**. Cədvələ əsasən uyğun xüsusiyyətləri seçin.

| N | Ölkələr | Xüsusiyyətlər |
|---|---|---|
| 1 | Argentina | Qərb yarımkürəsinin mütləq hündürlüyü ən yüksək olan dağ zirvəsi yerləşir. |
| 2 | Koreya Respublikası | Qurudan ancaq iki ölkə ilə həmsərhəddir. |
| 3 | Meksika | Əhalinin əksəriyyəti ovalıqlarda yaşayır. |
| 4 | CAR | Yalnız mülayim işıqlanma qurşağında yerləşir. |
| 5 | Yeni Zelandiya | Qərb sivlizasiyası hakimdir. |
| 6 | Kuba | Dəyişkən rütubətli meşələr təbii zonası yayılıb. |

A) 1, 2, 3 B) 2, 4, 6 C) 1, 3, 4 D) 1, 5, 6 E) 4, 5, 6

**6.** Doğru fikirləri müəyyən edin.
1. Balaton və Venern göllərinin yerləşdiyi ölkələrin inzibati-ərazi quruluşu unitardır.
2. Afrika materikinin sahəsinə görə ən böyük gölündə Keniya və Tanzaniyanın su akvatoriyası mövcuddur.
3. Son bir neçə ildə ölkəmizin ÜDM-də iqtisadiyyatının aparıcı sektoru xidmət (III) sektordur.
4. Argentina MERCOSUR təşkilatına üzv deyil.
5. Çində ÜDM-də iqtisadiyyatının xidmət sektoru (III) ən sonuncu yerdədir.
6. Kanada zəngin faydalı qazıntı ehtiyatlarına malik olduğu üçün ÜDM-də iqtisadiyyatının I sektorunun payı ən yüksəkdir.

A) 1, 5, 6
B) 2, 4, 6
C) 1, 2, 3
D) 2, 3, 4
E) 3, 5, 6

**7.** Skandinaviya və Hind-Çin yarımadaları üçün doğru sıraları müəyyən edin.

| | *aiddir* | *aid deyil* |
|---|---|---|
| 1 | İki yarımkürədə yerləşir. | Sahilləri iki okeanın suları ilə yuyulur. |
| 2 | Monarxiya idarəetmə sisteminə malik ölkələr mövcuddur. | Aprel ayında gecənin uzunluğu gündüzün uzunluğundan daha az olur. |
| 3 | Keçid iqlim qurşağında yerləşir. | Dünya okeanına birbaşa çıxışı olmayan ölkə mövcuddur. |
| 4 | Çayların hidroenerji potensialı yüksəkdir. | Qrunt suları səthə yaxın yerləşdiyi üçün şoran torpaqlar geniş yayılıb. |
| 5 | Qar xəttindən yüksəkdə yerləşən ərazilər mövcuddur. | Çayları yay aylarında bolsulu olur. |
| 6 | İki okeanın suları ilə əhatə olunublar. | Günorta vaxtı şaquli dirəyin kölgəsinin öz uzunluğundan kiçik olduğu məntəqələr mövcud deyil. |

A) 1, 2, 5
B) 1, 3, 4
C) 2, 3, 6
D) 1, 4, 5
E) 3, 4, 6

**8.** Argentina və Malayziya üçün oxşar xüsusiyyətləri müəyyən edin.
1. Ada vasitəsi ilə quru sərhədi mövcuddur.
2. Ərazisi ilə kəsişən hər hansı bir meridianla Qrinvic meridianı arasında yerli vaxt fərqi 6 saat 40 dəqiqədir.
3. İqtisadiyyatın III sektorunun payı daha yüksəkdir.
4. İxracatda kənd təsərrüfatı məhsullarının payı daha yüksəkdir.
5. Fəaliyyətdə olan vulkanlara rast gəlinmir.
6. Federativ inzibati ərazi quruluşuna malikdir.

A) 2, 4, 5 B) 1, 3, 6 C) 2, 3, 6 D) 1, 3, 4 E) 1, 4, 5

**9.** Doğru fikirləri müəyyən edin.
1. İpək və Vejnəli yataqları müxtəlif inzibati rayonlarda, lakin eyni iqtsadi rayonda yerləşir.
2. Ağdağ seolit yatağının mövcud olduğu inzibati rayon iki fiziki-coğrafi rayonun ərazisində yerləşir.
3. Nehrəm daşduz yatağının yerləşdiyi iqtisadi rayonun ərazisindən axan bütün çayların mənsəbinin mütləq hündürlüyü 200 metrdən çoxdur.
4. Ölkəmizin əsas barit yataqları Böyük Qafqaz tektonik qalxma zonasında yerləşir.
5. Diaxçay molibden yatağının yerləşdiyi inzibati rayonda qırışıq qaymalı nival buzlaq relyef tipi mövcuddur.
6. Bum mineral su bulağının yerləşdiyi inzibati rayonda denudasiyaya uğramış lakkolitlərə rast gəlinir.

A) 1, 3, 5
B) 2, 3, 5
C) 1, 4, 6
D) 2, 4, 6
E) 1, 2, 3

**10.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. NAFTA (USMCA) təşkilatına üzv olan ölkələr eyni inzibati ərazi quruluşuna malikdir.<br>2. Çin və Çili Qoşulmama (NAM) hərəkatına üzv ölkələrdir.<br>3. ASEAN təşkilatına üzv olan ölkələrdən dördü monarxiya, yalnız biri isə federasiyadır. | 4. Norveç yalnız Avropa İttifaqına daxil olan ölkələrlə quru sərhədinə malikdir.<br>5. İslam Əməkdaşlıq Təşkilatına (İƏT) dörd qitədən üzv olan ölkələr var.<br>6. Türkiyə, Rumıniya, Ermənistan və Albaniya QDİƏT( BSEC) təşkilatına üzv ölkələrdir. |

A) 1, 3, 6
B) 2, 4, 6
C) 1, 3, 4
D) 3, 4, 5
E) 1, 2, 5

**11.** Doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. Emba çayının mənsəbinin yerləşdiyi ölkənin ərazisindən axan ən uzun çay Şimal Buzlu okean hövzəsinə aiddir.
2. Kopetdağ silsiləsinin yerləşdiyi ölkələrdə tropik səhralar mövcuddur.
3. İssıkkul gölünün səviyyəsinin mütləq hündürlüyü Urmiya gölünün mütləq hündürlüyündən daha çoxdur.
4. Hilmənd, Okavanqo, Darlinq və Şari çayları daxili axarsız hövzəyə aiddir.
5. İravadi transsərhəd çay hesab edilmir.
6. Kil kanalı Danimarka ərazisindən keçir.

A) 4, 5, 6
B) 1, 3, 5
C) 2, 3, 6
D) 2, 4, 6
E) 1, 2, 3

**12.** Cədvələ əsasən uyğunluğu müəyyən edin.

| *Doğru* | *Yanlış* |
|---|---|
| 1. Tərtər və Həkəri çaylarının mənbəyində və mənsəbində IV dövr çöküntüləri yayılıb.<br>2. Türyançay beş fiziki-coğrafi rayondan axır.<br>3. Qafqaz dağlarından axan bütün çaylar Xəzər dənizinin sutoplayıcı hövzəsinə aiddir. | 4. Amudərya və Sırdərya çaylarının mənbəyinin yerləşdiyi dağlar Kaynozoy erasında yaranıb.<br>5. San-Fransisku çayı bir işıqlanma qurşağında yerləşir.<br>6. Vulkanik mənşəli adalara litosfer tavalarının həm konvergent həm də divergent sərhədlərində rast gəlinir. |

A) 1, 3, 4 B) 2, 4, 6 C) 2, 3, 5 D) 3, 5, 6 E) 1, 2, 4

**13.** *Xəritə-sxemdə təsviri verilən A adasının sahəsi Ukraynanın sahəsindən daha böyükdür. Bu adada həm şimal-şərq, həm də cənub-şərq külәkləri hakimdir.*

A adasına aid olan doğru fikirləri müəyyən edin.



1. Orta qırışıqlıq vilayətində yerləşir.
2. Sahillərini iki okeanın suları yuyur.
3. Fəaliyyətdə olan vulkanlar mövcud deyil.
4. Buradakı üç ölkədən yalnız bir ölkə üç yarımkürədə yerləşir.
5. Adada alt bataqlıq landşaftı üstünlük təşkil edir.
6. Nival landşaftlara rast gəlinir.

A) 2, 4, 5 B) 2, 4, 6 C) 1, 3, 5 D) 2, 3, 6 E) 1, 3, 4

**14.** *Xəritə-sxemdə göstərilən A və B ölkələri ada və ya yarımadada yerləşmirlər. Eyni işıqlanma qurşağında yerləşən bu ölkələrin dünya okeanına birbaşa çıxışı var. A ölkəsi iki, B ölkəsi isə üç yarımkürədə yerləşir. A ölkəsinin aid olduğu materik üç, B ölkəsinin aid olduğu materik isə iki işıqlanma qurşağında yerləşir.*

Xəritə-sxemə və mətnə əsasən, cədvəllərdəki uyğunluğu müəyyən edin.




| **I – A ölkəsi** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Demoqrafik keçidin II mərhələsindədir.<br>2. Oroqrafik yağıntı növləri üstünlük təşkil edir.<br>3. İki işıqlanma qurşağında yerləşir. | 4. Fəaliyyətdə olan vulkan mövcud deyil.<br>5. I saat qurşağında yerləşir.<br>6. Çayları bir okean hövzəsinə aiddir. |

| **II – B ölkəsi** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Həmsərhəd olduğu bütün ölkələr üç yarımkürədə yerləşir.<br>2. Ərazisində geosinklinalın platformaya çevirilməsinin III formalaşma mərhələsində olan dağ sistemi yerləşir.<br>3. XXI saat qurşağında yerləşir. | 4. Günəşin günorta vaxtı minimum düşmə bucağının 66,5° bucaq altında göründüyü məntəqə mövcuddur.<br>5. Ərazisində materikin sahəsinə görə ən böyük gölü yerləşir.<br>6. Ən uzun çayı sahəcə ən böyük okean hövzəsinə aiddir. |

A) I-1, 2, 4; II- 2, 5, 6 B) I-1, 2, 5; II-2, 4, 5
C) I-1, 3, 5; II- 2, 4, 6 D) I-2, 3, 4; II-1, 3, 5
E) I-1, 3, 6; II-1, 2, 4

**15.** Cədvələ əsasən doğru sıraları müəyyən edin.

| № | Dövlət | Xüsusiyyət |
|---|---|---|
| 1 | İran | Ən uzun çayı Xəzər dənizinə tökülür. |
| 2 | Banqladeş | Çayları yalnız bir okean hövzəsinə aiddir və relyef amplitudu 1500 metrdən azdır. |
| 3 | Pakistan | Ərazisində Tar səhrası və K2 zirvəsi yerləşir |
| 4 | Finlandiya | Hərbi cəhətdən uzunmüddət neytral qalsa da, geosiyasi mühitin dəyişməsi nəticəsində NATO-ya üzv olmuşdur. |
| 5 | Kanada | ABŞ-nin son illərdəki iqtisadi siyasətindəki dəyişiklikləri iqtisadiyyatda müsbət nəticələr doğurmuşdur. |
| 6 | Özbəkistan | Əkinçilik yalnız suvarma şəraitində həyata keçirilir. |

A) 1, 3, 4 B) 2, 3, 4 C) 2, 5, 6 D) 1, 2, 5 E) 2, 4, 6

**16**. Cədvəldəki ölkələrə əsasən uyğunluğu müəyyən edin.

| | | | |
|---|---|---|---|
| 1 | Mozambik | Tropik siklonlar ilboyu hakimdir. | *doğru* |
| 2 | Danimarka | Relyef amplitudu 200 metrdən azdır. | *yanlış* |
| 3 | Çin | Pamir, Tyan-Şan və Xinqan dağları ərazisində yerləşir. | *doğru* |
| 4 | Çili | Materikin ən yüksək zirvəsi yerləşir. | *yanlış* |
| 5 | Misir | İki qitədə, iki yarımkürədə yerləşir, sahillərini iki okeanın suları yuyur və çox hissəsi tropik işıqlanma qurşağındadır. | *yanlış* |
| 6 | Tailand | Fəaliyyətdə olan vulkanlara rast gəlinir. | *doğru* |

A) 2, 4, 6 B) 3, 4, 5 C) 1, 3, 5 D) 2, 3, 5 E) 1, 4, 6

**17.** ***A*** *su anbarı* ***K*** *və* ***L*** *ölkələrinin ərazisində yaradılmışdır. Bu anbar materikin ən uzun çayı üzərində yerləşir. Anbarın böyük hissəsi K ölkəsinə aiddir. Ondan çayın axınının tənzimlənməsində, elektrik enerjisi istehsalında, suvarma, gəmiçilik və balıqçılıqda istifadə edilir. Bu anbar ərazinin iqliminə böyük təsir göstərmişdir. Belə ki, anbarın tikintisindən sonra burada buludlu və yağışlı günlərin sayı artmış, havanın orta illik temperaturu 2°C aşağı düşmüş, rütubətlilik 15–20% yuxarı qalxmış, sutkalıq brizlərin təsiri güclənmişdir.*

Mətnə əsasən, K və L ölkələri üçün ümumi xüsusiyyətləri müəyyən edin.

1. İki işıqlanma qurşağında yerləşir.
2. Pambıq bitkisi becərilir.
3. Respublika idarəetmə formasına malikdir.
4. Əhalinin əksəriyyəti Afro-Asiya dil ailəsinə mənsubdur.
5. Materikdaxili mövqeyə malik olan ölkə ilə quru sərhədi mövcuddur.
6. Savanna və seyrək meşələr yayılmışdır.

A) 3, 5, 6 B) 1, 2, 5 C) 2, 3, 4 D) 2, 5, 6 E) 1, 3, 4

**18.** ***A*** *ölkəsinin sahillərini yalnız iki dəniz suları yuyur. Bu dənizlərdən biri daxili, biri isə kənardır. Bu ölkə ərazisində iki dənizi birləşdirən gəmiçilik kanalı çəkilmişdir.*
***B*** ölkəsi *materikdaxili ölkələr içərisində ən böyük sahəyə malikdir*.
Mətnə və cədvəllərə əsasən uyğunluğu müəyyən edin.

| **I – A ölkəsi** | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Federativ inzibati ərazi quruluşuna malikdir.<br>2. Çayları iki okeanın sutoplayıcı hövzəsinə aiddir.<br>3. Ərazisi iki iqlim vilayətində yerləşir. | 4. Əhalisinin əksər hissəsinin danışdığı dil Əfqanıstan əhalisinin danışdığı dillə eyni ailəyə mənsubdur.<br>5. Alp qırışıqlığında yaranan dağlara rast gəlinir.<br>6. Buzlaq mənşəli akkumulyativ düzənliklərə rast gəlinmir. |

| II – B ölkəsi | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Ərazisindən axan ən uzun çayın töküldüyü əsas çayın mənsəbi deltadır.<br>2. Ərazisinin əsas hissəsi keçid iqlim qurşağında yerləşir.<br>3. Ərazisinin bir hissəsi Paleozoy erasında formalaşmış platforma üzərində yerləşir. | 4. Qoşulmama hərəkatının (NAM) üzvüdür.<br>5. Yalnız iki ölkə ilə quru sərhədləri var.<br>6. Prezident idarəetmə sisteminə malikdir. |

A) I-2, 3, 4; II-1, 4, 5
B) I-2, 4, 5; II-1, 3, 6
C) I-1, 3, 5; II- 2, 3, 6
D) I-1, 3, 6; II- 3, 4, 5
E) I-1, 3, 6;  II-1, 2, 4

**19.** Cədəvlə əsasən "Böyük yeddilik" ölkələri üçün uyğun əlamətləri müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | Sahəcə ən böyüyü ən kiçiyinin keçmişdə müstəmləkəsi olmuşdur. | *doğru* |
| 2 | Bu ölkələrin payına dünyanın ümumi və sənaye məhsulları istehsalının 40%-dən çoxu düşür. | *yanlış* |
| 3 | Bu ölkələrdən ikisində əhalinin əksəriyyəti Hind-Avropa dil ailəsinə mənsub deyil. | *doğru* |
| 4 | Aralarından ikisinin sahillərini üç okeanın suları yuyur. | *yanlış* |
| 5 | Əhalisinin sayına görə ən böyüyünün ərazisi 3 işıqlanma qurşağında yerləşir. | *doğru* |
| 6 | Aralarından yalnız biri NATO ölkəsi olmayıb, Qoşulmama hərəkatına (NAM) üzv ölkədir. | *yanlış* |

A) 1, 5, 6
B) 2, 4, 6
C) 1, 4, 5
D) 2, 3, 6
E) 1, 3, 4

**20.** ***A*** *gölü aid olduğu qitənin ən böyük gölü olmaqla yanaşı üç yarımkürədə yerləşir.*
***B*** *gölü yalnız bir qitənin bir ölkənin ərazisində yerləşir, həmin qitədə sahəsinə görə ən böyük gölüdür, aid olduğu ölkənin isə sahəsinə görə ən böyük gölü deyil.*
Mətnə və cədvəllərə əsasən uyğunluğu müəyyən edin.

| I – A gölü | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Qrabendə yerləşir.<br>2. Bir neçə ölkənin ərazisi hesab edilir və bu ölkələrdən biri iki yarımkürədə yerləşir.<br>3. Yerləşdiyi qitənin qərbində fəaliyyətdə olan vulkan mövcuddur. | 4. Sutoplayıcı hövzəsinin aid olduğu okeanda litosfer tavalarının konvergent hərəkəti nəticəsində yaranmış adalar mövcuddur.<br>5. Aid olduğu ölkələrdən yalnız biri okeansahili mövqeyə malikdir.<br>6. Miçiqan gölü ilə müqayisədə sahillərinin mütləq hündürlüyü daha çoxdur. |

| II – B gölü | |
|---|---|
| Doğrudur | Yanlışdır |
| 1. Ölkəmizdə yerləşən Tufangöllə eyni mənşəlidir.<br>2. Həcminə görə yerləşdiyi ölkənin ən böyük gölüdür.<br>3. İki okeanın sutoplayıcı hövzəsində yerləşir. | 4. Aid olduğu qitənin ən uzun çayından kanal vasitəsilə gəmilər qəbul edir.<br>5. Kamçatka yarımadası ilə eyni iqlim vilayətində yerləşir.<br>6. Mənbəyi olduğu ən uzun çayın töküldüyü dəniz iki işıqlanma qurşağında yerləşir. |

A) I-1, 3, 6; II-1, 2, 4
B) I-2, 4, 5; II-2, 3, 6
C) I-1, 4, 5; II- 2, 3, 6
D) I-2, 3, 4; II-1, 4, 5
E) I-2, 3 ,5 ; II-1, 5, 6